# Mingəçevirdə COVID-19-a qarşı mübarizə tədbirləri gücləndirilir








Mingəçevir şəhəri ərazisində Nazirlər Kabineti yanında Operativ Qərargahın tələbləri əsasında müəyyənləşdirilmiş tədbirlər planına uyğun olaraq həftədə 2 dəfə təmizlik və dezinfeksiya işləri aparılır.

Bundan əlavə, şəhərdəki binaların girişlərində, idarə və müəssisələrdə, ticarət və xidmət obyektlərində əhalinin nəzərinə çarpan yerlərdə təlimat posterləri yerləşdirilir. Həmçinin monitorinq qrupları tərəfindən ictimai iaşə obyektlərində və nəqliyyatda mütəmadi reydlər təşkil edilir və inzibati tədbirlər həyata keçirilir. Şəhər ərazisində "COVID-19"-a yoluxan şəxslər aşkar olunan kimi həmin ərazi nəzarətə götürülür, dezinfeksiya işləri aparılır, xəstənin karantin xəstəxanalardan birinə yerləşdirilməsi təmin edilir. Yeri gəlmişkən, qeyd edək ki, koronavirus infeksiyasının yayılmasının




qarşısının alınması məqsədilə icra hakimiyyəti, bələdiyyə və polis şöbəsinin nümayəndələrindən ibarət 35 təbliğat və 3 monitorinq qrupları yaradılmışdır.

Son günlər yoluxma sayının artması ilə əlaqədar şəhərdə profilaktika işləri gücləndirilmiş, yas mərasimlərinin məhdudlaşdırılmasına nəzarət artırılmışdır. Bundan savayı, Nazirlər Kabineti tərəfindən şəhər icra hakimiyyətinə göndərilmiş 20300 ədəd tibbi maska mobil qruplar vasitəsilə əhaliyə paylanmışdır. Habelə Operativ Qərargahın müvafiq qərarına əsasən, şəhər ərazisində fəaliyyət göstərən dövlət orqanlarında və müəssisələrdə müvəkkillər təyin edilmişdir. Müvəkkillər vasitəsilə müəssisələrdə sanitar epidemioloji qaydalara nəzarət təşkil olunur, hər gün işçilərin temperaturu yoxlanılır. Həmin müvəkkillərin işlərinə nəzarət isə şəhər icra hakimiyyətində fəaliyyət göstərən operativ qərargahın üzvləri tərəfindən həyata keçirilir. Sonda onu da qeyd edək ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən Mingəçevir şəhərinə giriş-çıxışın məhdudlaşdırılması ilə əlaqədar polis şöbəsi tərəfindən müvafiq yerlərdə postlar qurulmuşdur.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.- 30 oktyabr.- S.9.